Təsdiq edilmişdir:
AGF-nin İcra Komitəsinin
27.12.2021-ci il tarixli Qərarı ilə

AGF-nin Vitse-prezidenti Altay Həsənov

# “Azərbaycan Gimnastika Federasiyası” İctimai Birliyinin

# KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ HAQQINDA QAYDALARI

# AGF 2021

**MÜNDƏRİCAT**

1. Akkreditasiya
2. Ümumi qaydalar
3. Fotoşəkillərin çəkilməsi
4. Yayım hüquqları
5. Yekun müddəalar

Əlavələr

"Azərbaycan Gimnastika Federasiyası" İctimai Birliyi (AGF) rəsmi yarışları / tədbirlərində və ya tanıdığı yarışlarda / tədbirlərdə iştirak edən jurnalistlər üçün daim peşəkar fəaliyyət mühiti yaratmağa çalışır və hazırkı Kütləvi İnformasiya Vasitələri (KİV) haqqında Qaydalarına əsasən bütün media nümayəndələri üçün fəaliyyət çərçivəsi müəyyən edir. Hazırkı Qaydalar, AGF-nin Texniki Reqlamentinə uyğun olaraq, AGF tərəfindən təşkil edilən və yaxud tanınan bütün milli tədbirlər və ya yarışlar zamanı KİV nümayəndələrinin akkreditasiya üçün müraciət qaydaları və ümumiyyətlə media fəaliyyəti üzrə təlimatları ehtiva edir.
AGF-nin ev sahibliyi etdiyi müvafiq beynəlxalq qurumların (Beynəlxalq Gimnastika Federasiyası (bundan sonra BGF adlandırılacaq) və Avropa Gimnastikası) tədbirləri və ya yarışları zamanı KİV nümayəndələrinin akkreditasiya üçün müraciət qaydaları və ümumiyyətlə media fəaliyyəti BGF-nin media qaydalarına uyğun olaraq həyata keçirilir. İstisna hallarda müəyyən beynəlxalq tədbir və ya yarışlarda hazırkı Qaydalar tam və ya qismən tətbiq oluna bilər.

AGF-nin rəsmi yarışları / tədbirlərində akkreditasiyadan keçmiş KİV nümayəndələrindən öz iş yoldaşları, gimnastlar, məşqçi heyəti, təşkilatçı və könüllülərə hörmətlə yanaşmaları tələb olunur. Onlar daim həqiqət, dəqiqlik, obyektivlik, qərəzsizlik, ədalətlilik və ictimai məsuliyyət daxil olmaqla yüksək normaları təmin edərək beynəlxalq mətbuat və jurnalistika etikası prinsiplərinə əsasən fəaliyyət göstərməlidirlər.
Akkreditasiya üçün müraciət edən şəxslər burada qeyd olunmuş şərtləri qəbul edir və bütün tədbir ərzində belə şərtlərə hörmətlə yanaşacaqlarına razılıq verirlər.

## 1. AKKREDİTASİYA

Akkreditasiya kartı (tətbiq olunduqda) AGF tərəfindən şəxsiyyətin kimliyinin müəyyən olunması məqsədilə verilən bir kartdır. Bu akkreditasiya kartı (tətbiq olunduqda) sahibinə yarış və ya digər tədbir məkanında media üçün ayrılmış müəyyən yerlərə və ya onların bir qisminə, Yerli Təşkilat Komitəsi (YTK) tərəfindən icazə verilən digər xidmət məkanlarına sərbəst giriş imkanı yaradır.

### 1.1. Peşəkar heyət üzrə məhdudiyyətlər

Yalnız redaksiya məqsədi üçün işləyən və ya informasiya məzmunu daşıyan məqalə hazırlayan peşəkar jurnalistlər, redaktorlar və fotoqraflar akkreditasiya kartı (tətbiq

olunduqda) ilə təmin olunacaqlar. Redaksiya istifadəsi dedikdə, media qurumu, o cümlədən agentliklər, qəzetlər, jurnallar, televiziya, radio, internet agentlikləri tərəfindən istifadə başa düşülür. İnformasiya məzmunu dedikdə, orijinal məlumatların redaktə edilməsi nəzərdə tutulur.

**1.2 Akkreditasiya üçün müraciətlərin qəbulu və akkreditasiyanın verilmə qaydaları**

KİV nümayəndələri AGF-nin rəsmi yarışları / tədbirləri zamanı istifadə olunacaq akkreditasiya üçün AGF-nin mətbuat katibliyinə müraciət etməlidirlər. AGF-nin rəsmi yarışı / tədbiri üzrə KİV akkreditasiyasına dair müraciətlərin qəbulu üçün müəyyən olunmuş son tarixədək onlayn portalda (tətbiq olunduqda, əks halda elektron poçt ünvanına göndərməlidirlər) qeydiyyatdan keçərkən akkreditasiya almaq üçün tələblər bölməsinə aid məlumatlar tam şəkildə doldurulmalıdır. Akkreditasiyanın verilməsi haqqında yazılı təsdiq AGF tərəfindən müəyyən müddət ərzində müvafiq elektron poçt ünvanına göndərilir.

AGF-nin rəsmi yarışları / tədbirlərini işıqlandırmaq məqsədilə akkreditasiya üçün müraciət edən şəxslər, əsas gəlir mənbəyi xəbərlərin toplanması olan kütləvi informasiya vasitələri təşkilatlarının əməkdaşları olmalı və akkreditasiyadan keçmək üçün iş vəsiqəsinə sahib olmalıdırlar. Sərbəst surətdə fəaliyyət göstərən jurnalistlər hər hansı bir media qurumuna aidiyyatları olduqlarını təsdiq edən yazılı sübut təqdim etməlidirlər.

KİV nümayəndələri üçün akkreditasiyalar foto və ya şəkil satışı ilə məşğul olan şəxslər üçün nəzərdə tutulmamışdır. Bu akkreditasiyalar kommersiya müəssisələrində fəaliyyətə cəlb olunmuş şəxslərə verilmir.

1.2.1 KİV nümayəndələri üçün nəzərdə tutulmuş akkreditasiyaları almaq məqsədilə jurnalist:

- Tanınmış milli agentlik / təşkilatda çalışan jurnalist və ya fotoqraf olmalı və həmin agentlik təşkilat tərəfindən yarış / tədbirdə iştirak etmək üçün təyin olunmalıdır;
- Gimnastika ilə bağlı yarış / tədbirlərin işıqlandırılmasında öz təcrübəsini sübut etmək iqtidarında olmalıdır.

1.2.2 Aşağıdakı şərtlər yerinə yetirilmədiyi təqdirdə, AGF sərbəst surətdə fəaliyyət göstərən jurnalist və ya internet müxbirlərinin akkreditasiya üçün müraciətlərini qəbul etməyəcək:

- Tam doldurulmuş onlayn müraciət;
- Hər hansı bir media qurumuna aidiyyatları olduqlarını təsdiq edən yazılı sübut. Qurumun rəsmi blankında çap olunmuş həmin sənəddə redaktor tərəfindən faktiki təyinat, redaktorun adı, əlaqə məlumatları, imzası və qurumun möhürü öz əksini tapmalıdır;
- Qeyd edək ki, sözügedən materialların təqdim olunması akkreditasiya üçün müraciətin qəbul edilməsinə zəmanət vermir.

Sərbəst surətdə fəaliyyət göstərən və yarışlara marağı olan fotoqrafların akkreditasiya müraciətlərinə AGF-nin mətbuat katibliyində baxılacaq və müvafiq qərar veriləcək.

1.2.3 Akkreditasiya iş vəsiqəsi və anketi (Əlavə 3 - Vebsayt üçün Anket) təqdim etmiş xəbər paylaşan internet saytlarının nümayəndələrinə aşağıdakı tələblərə cavab vermək şərtilə təqdim ediləcəkdir:

- AGF-nin rəsmi yarışlar / tədbirlərində akkreditasiya almaq üçün müraciət edən internet səhifələri müstəqil fəaliyyət göstərən və ya müxtəlif informasiya vasitələrindən istifadə edən (qəzet, jurnal, TV, agentlik) bir şirkətin tərkibində ayrıca bir bölmə kimi fəaliyyət göstərməlidirlər;
- Bir neçə və ya bütün idman növlərini əhatə edən internet saytları Azərbaycan Respublikasının Qanunvericiliyinə müvafiq olaraq media orqanı kimi tanınmalı və qeydiyyatdan keçməlidirlər;
- Bir və ya bir neçə idman növü üzrə ixtisaslaşan internet saytı kimi tanınmalıdırlar;
- İnternet saytları ən azı iki il ərzində qaydalara riayət etməklə tam fəaliyyət göstərmiş olmalıdır. Yeni saytların müraciətlərinə istisna hallarda baxıla bilər;
- İnternet saytları məlumatın ötürülməsində məzmunu peşəkar səviyyədə təqdim etməlidir. Orijinal olmayan istənilən məzmun redaktə olunduqda, əsl mənbə qeyd edilməlidir;
- İnternet saytları yalnız istifadə etdikləri məzmunun (mətn və şəkillər) qanuni təminatçısı olan, rəsmi olaraq ödəniş edilmiş xəbər mənbələrindən istifadə etməlidirlər (agentliklər, sərbəst surətdə fəaliyyət göstərən peşəkar jurnalistlər). Digər mənbələr yalnız rəsmi olaraq qəbul edilmiş mənbələr olmadıqda istifadə oluna bilər. Belə olan halda, alternativ mənbənin rəsmi mənbə olmadığı açıq şəkildə qeyd edilməlidir;
- Dərc olunmamışdan əvvəl bütün nüsxələr üzrə yekun nəzarəti həyata keçirən redaktorlar tanınmış peşəkar jurnalistlər olmalıdırlar;
- Fəaliyyətləri sırf idman sahəsini əhatə etməyən Qanunvericilikdə nəzərdə tutulmuş qaydada qeydiyyatdan keçmiş internet saytları gimnastikaya aid mümkün qədər çox davamlı və orijinal xəbər mətnlərini nümayiş etdirmiş olmalıdırlar. Belə bir məzmunun əksər faizi saytın öz işçi heyəti tərəfindən yazılmış olmalıdır;
- Əsasən redaktə edilmiş dublikat məzmundan ibarət olan və keçid sayt kimi fəaliyyət göstərən saytlar mətbuat vasitəsi olaraq qəbul edilməyəcəkdir;
- Bloqlar tanınmış jurnalistika mediasına inteqrasiya olunduğu zaman ictimai jurnalistika kimi qəbul olunur. Yalnız sosial media platformasını əhatə etmə jurnalistika kimi qəbul edilmir və buna görə də onlara media akkreditasiyası verilmir;
- Xəbərlər təqdim olunarkən nümayiş etdirilən kommersiya / reklam xarakterli məzmunlar müvafiq jurnalistika məzmununa görüntü olaraq və / və ya səs baxımından mane olmamalıdır / üstünlük təşkil etməməlidir;
- Pirat videoları və qanunsuz surəti çıxarılmış məzmunları internet saytlarında və / və ya video kanallarında dərc edən bloqlar tanınmayacaq və buna görə də KİV nümayəndəsi akkreditasiyası üçün müraciətləri nəzərə alınmayacaqdır;

- Tədbirdə yerlərin sayı məhdud olarsa, üstünlük xəbər yayımı ilə məşğul olan tanınmış təşkilatlara veriləcəkdir;
- Sosial şəbəkələrdə tədbirdən canlı yayım aparıla bilər;
- Sayt üçün müraciət edən və ya onu təmsil edən hər bir təşkilat E kateqoriyası üçün Media bəyannaməsini (***Əlavə 1***) imzalamalıdır;
- Xəbər paylaşan internet saytlarının nümayəndələri Əlavə 3-ü (Vebsayt üçün Anket) doldurmalıdır.

1.2.4 Azərbaycan Respublikasının ərazisində qeydiyyatdan keçmiş idman klubları / cəmiyyətləri / təşkilatlarının (İKC) mətbuat nümayəndələri təmsilçilərinin iştirak etdiyi milli yarışlarda müvafiq olaraq yazılı mətbuat və fotoqraf akkreditasiyasını (F / F-P) əldə edə bilərlər. Bu növ akkreditasiya AGF-yə müvafiq İKC tərəfindən rəsmi yazılı müraciət təqdim olunduqda verilir. İKC-lərə verilən akkreditasiya 1 mətbuat nümayəndəsi və 1 fotoqrafla məhdudlaşır.

1.2.5 Müvafiq hüquqa malik olan yayım şirkətləri öz müqavilələrinə əsasən (tətbiq olunduqda) akkreditə olunacaqdır. Belə hüquqa malik olmayan şirkətlər AGF-nin razılığını əldə etməlidirlər.

1.2.6 Yalnız tələb olunan müvafiq sənədlər daxil olmaqla KİV akkreditasiyası üzrə son tarixədək təqdim olunan müraciətlər nəzərdən keçiriləcəkdir. Boş yerlər olduqda, istisna hallarda gecikmiş müraciətlər nəzərə alına bilər.

1.2.7 AGF-nin rəsmi yarışları / tədbirlərində AGF-nin qaydalarını pozan və / və ya AGF-nin rəsmi şəxsləri tərəfindən verilən təlimatlara əməl etməyən KİV nümayəndələrinə növbəti yarışlara akkreditasiya verilmir. Sözügedən KİV nümayəndələri belə bir qərarın dəyişdirilməsi üçün AGF-yə müraciət etdikdə, AGF bu məsələyə yenidən baxa bilər.

1.2.8 Son qeydiyyat tarixi bitdikdən sonra, bütün müraciət edən şəxslər onların KİV akkreditasiyaları üzrə müraciətlərinin qəbul olunub-olunmaması haqda AGF-nin mətbuat katibliyi tərəfindən məlumatlandırılacaqlar. AGF və Yerli Təşkilat Komitəsi (YTK) bütün müraciətlərin qəbul olunub-olunmaması üzrə müstəsna səlahiyyətə malikdirlər. Əvvəlki illərdə akkreditasiyanın alınması gələcək tədbirlərə də akkreditasiyanın veriləcəyinə zəmanət vermir. AGF qəbul etdiyi hər hansı qərar barədə səbəblər göstərmək öhdəliyi daşımır.

1.2.9 Akkreditasiya verilən zaman, aşağıdakılara üstünlük veriləcəkdir:

- Xəbər / foto agentlikləri;
- Qəzetlər;
- Jurnal və həftəlik dərc olunan qəzetlər.

Akkreditasiya əldə edən KİV nümayəndələri tələb edilən qaydada tədbirdə iştirak etməlidirlər. Qeydiyyatdan keçdikdən sonra artıq iştirak etmək istəmədikləri təqdirdə, bu haqda AGF-yə ən geci tədbirin başlanmasına 1 (bir) gün qalmış xəbər verməlidirlər. Tədbirdə iştirak etməyən müraciətləri təsdiq olunmuş KİV nümayəndələri gələcəkdə AGF-nin rəsmi yarışları / tədbirlərində akkreditasiya almaqdan məhrum olma riski ilə üzləşə bilərlər.

1.2.10 Müvafiq yayım hüquqları üzrə müqavilələni imzaladıqdan sonra (tətbiq olunduqda), canlı yayım və yayım hüququna malik KİV təşkilatları internet səhifəsi vasitəsilə

(tətbiq olunduqda, əks halda elektron poçt ünvanına göndərməlidirlər) onlayn olaraq öz heyətlərinin siyahısı və şəkillərini təqdim edəcəklər.

1.2.11 Yarış / tədbirdən əvvəl və ya yarış / tədbir ərzində hazırkı Qaydalara riayət etməyən mətbuat nümayəndələrinin akkreditasiyası yarış / tədbirin yerdə qalan hissəsi üçün geri götürüləcək və gələcək yarış / tədbirlərdə onların iştirakına qadağa qoyula bilər.

1.2.12 KİV nümayəndələri akkreditasiya kartlarını (tətbiq olunduqda) YTK tərəfindən yarış / tədbir məkanında xüsusi ayrılmış yerdən alacaqlar. Akkreditasiya kartlarını (tətbiq olunduqda) nümayəndə deyil, yalnız kart verilən şəxs özü götürə bilər. Hər yarış / tədbir zamanı günün sonunda KİV nümayəndələri onlara YTK tərəfindən çalışmaq üçün təqdim olunan jiletləri təhvil verməlidirlər. Kartlar (tətbiq olunduqda) yalnız müvafiq şəkil təqdim edildikdə və KİV nümayəndələrinin Mətbuat və ya Yayım Bəyannaməsi forması - müvafiq olaraq Əlavə 1 (E Kateqoriyalari üçün Media Bəyannaməsi) və 2-ni (Hüquq sahibi olan (RT) və olmayan (ENR) Media Qrupları üçün Yayımçı Bəyannaməsi / Əlavə 2) imzaladıqdan sonra təqdim olunacaqdır. Yanlış məlumatlar təqdim etməklə qeydiyyatdan keçmiş istənilən şəxsin akkreditasiyası dərhal geri götürüləcəkdir.

1.2.13 Akkreditə olunmuş KİV nümayəndələri yarışın / tədbirin tam müddəti ərzində akkreditasiya kartlarını (tətbiq olunduqda) yarış / tədbirin keçirildiyi məkanda üzərilərində daşımalıdırlar. Heç bir halda belə bir akkreditasiya kartının surəti çıxarıla və ya ona dəyişiklik edilə bilməz. Akkreditasiya kartları digər şəxslərə ötürülə bilməz.

1.2.14 Akkreditə olunmuş KİV nümayəndələrinə yalnız akkreditasiya kartlarında (tətbiq olunduqda) qeyd olunmuş zonalara keçməyə icazə veriləcəkdir. Onlar təyin edilmiş və işarələnmiş marşrut sisteminə riayət etməlidirlər.

## 1.3 Kateqoriyalar

AGF KİV nümayəndələrinin akkreditasiyasına aid Beynəlxalq Olimpiya Komitəsi (BOK) və Beynəlxalq Gimnastika Federasiyası (BGF) tərəfindən tanınan ixtisarlardan, rəng və zona girişlərindən istifadə edir. Lazım olduqda, AGF özünəməxsus kateqoriyadan da istifadə edə bilər.

| **1. YAZILI MƏTBUAT** | | |
|---|---|---|
| **E** | Yazılı mətbuat | Redaktorlar – Radio nümayəndələri |
| **EP** | Fotoqraf | Yazılı mətbuatın fotoqrafları |

| **2. VEBSAYTLAR / RƏQƏMSAL MEDIA** | | |
|---|---|---|
| **EE** | Vebsayt redaktoru | Tanınmış internet saytlarının / bloqların / redaktorları |
| **EE-P** | Vebsayt fotoqrafı | Vebsayt fotoqrafları |

EE-P kateqoriyası ən tanınmış bloqların / internet saytların internet fotoqraflarını fərqləndirmək üçün yaradılmışdır. EE-P akkreditasiyasına sahib olan fotoqraflara EP zonalarından istifadə etməyə icazə verilir, lakin məhdudiyyətlər tətbiq oluna bilər.

| | | | |
|---|---|---|---|
| **3. AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ QEYDİYYATDAN KEÇMİŞ İDMAN KLUBLARI / CƏMİYYƏTLƏRİ / TƏŞKİLATLARININ (İKC) MƏTBUAT NÜMAYƏNDƏLƏRİ** | | | |
| **E** | F | İKC-nin yazılı mətbuatı | IKC-lərin media nümayəndələri |
| **E** | F-P | İKC-nin fotoqrafı | İKC-lərin fotoqrafları |

| | | |
|---|---|---|
| **4. TELEVİZİYA YAYIM HÜQUQU OLMAYANLAR** | | |
| **ENR** | Yayım hüququ olmayan televiziyalar | Yayım hüququ olmayan yayımçı / Şəbəkə / İnternet video |

| | | |
|---|---|---|
| **5. CANLI YAYIM HÜQUQU OLAN TELEVİZİYA YAYIMÇISI** | | |
| **HB-A** | Canlı yayım hüququ olan yayımçı | Direktor (rəhbər) |
| **HB-B** | Canlı yayım hüququ olan yayımçı | İstehsal (rejissor, şərhçilər, məsləhətçilər) |
| **HB-C** | Canlı yayım hüququ olan yayımçı | Texniki heyət (operator, texniklər, köməkçilər) |

| | | |
|---|---|---|
| **6. YAYIM HÜQUQU OLAN TELEVİZİYA YAYIMÇISI** | | |
| **RH-A** | Yayım hüququ olan yayımçılar | Direktor (rəhbər) |
| **RH-B** | Yayım hüququ olan yayımçılar | İstehsal (rejissor, şərhçilər, məsləhətçilər) |
| **RH-C** | Yayım hüququ olan yayımçılar | Texniki heyət (operator, texniklər, köməkçilər) |

### 1.4 Akkreditasiyaların sayı

Hər bir təşkilat üçün KİV akkreditasiyalarının sayı üzrə norma aşağıdakı şəkildə müəyyən edilmişdir:

- Yazılı mətbuat (qəzet, jurnal, xəbərlər paylaşan internet saytlar, agentliklər): hər bir təşkilatdan ən çoxu iki (2) peşəkar əməkdaş;
- Fotoqraf: hər bir təşkilat üçün ən çoxu iki (2) peşəkar əməkdaş;
- Gimnastika üzrə saytlar və bloqlar: hər bir təşkilat üçün ən çoxu bir (1) EE (internet saytları redaktorları) və bir (1) EE-P (internet saytlarının redaktorları);
- Radio: hər bir təşkilat üçün ən çoxu iki (2) peşəkar əməkdaş;
- Yayım şirkəti (ENR – TV yayım hüququna sahib olmayanlar): hər bir təşkilat üçün ən çoxu üç (3) peşəkar əməkdaş.

### 1.5 Giriş zonaları

1.5.1 Giriş zonaları və müxtəlif kütləvi informasiya vasitələri üzrə kateqoriyalara bölünmə aşağıdakı qaydada aparılır:

| | |
|---|---|
| **HB-A** Canlı yayım hüququ olan yayımçı / Direktor | Yarış meydançası, media nümayəndələri üçün ayrılmış yerlər, televiziya kameralarının yerləri, qarışıq zona |
| **HB-B** - Canlı yayım hüququ olan yayımçı / İstehsal (rejissor, şərhçilər, məsləhətçilər) | Yarış meydançası, media nümayəndələri üçün ayrılmış yerlər, televiziya kameralarının yerləri, qarışıq zona |
| **HB-C** - Canlı yayım hüququ olan yayımçı / Texniki heyət (operator, texniklər, köməkçilər) | Yarış meydançası, media nümayəndələri üçün ayrılmış yerlər, televiziya kameralarının yerləri, qarışıq zona |
| **RH-A/B/C** - Yayım hüququ olan yayımçılar* | Yarış meydançası, media nümayəndələri üçün ayrılmış yerlər, televiziya kameralarının yerləri, qarışıq zona |
| **ENR** – Yayım hüququ olmayan televiziyalar | Media nümayəndələri üçün ayrılmış yerlər, qarışıq zona |
| **E** – Yazılı mətbuat | Media nümayəndələri üçün ayrılmış yerlər, qarışıq zona |
| **EP** – Fotoqraf | Media nümayəndələri və fotoqraflar üçün ayrılmış yerlər, qarışıq zona |
| **EE** – Vebsayt redaktoru / bloq / podkast | Media nümayəndələri üçün ayrılmış yerlər, qarışıq zona |
| **EE-P** – Vebsayt fotoqrafı | Media nümayəndələri və fotoqraflar üçün ayrılmış yerlər, qarışıq zona |

*Akkreditasiya tətbiq olunduqda yarış meydançasına (FOP) giriş üçün FOP kartı tələb olunur*

## 2. ÜMUMİ QAYDALAR

AGF akkreditasiyadan keçmiş KİV nümayəndələrini müvafiq iş şəraiti ilə təmin edir. Akkreditə olunmuş KİV nümayəndələri tədbir boyunca hazırkı Qaydalara riayət etməlidirlər. KİV nümayəndələri onlar üçün ayrılmış iş yerlərində sakit və peşəkar ab-havanı pozmamalı və öz iş yoldaşlarının iş mühitinə hörmətlə yanaşmalıdırlar. KİV nümayəndələri üçün ayrılmış yerlərdən əl çalmaq, alqışlamaq və ya fit çalmağa icazə verilmir. Təhqiredici, hədələyici və ya sərt davranışa yol verilmir. KİV nümayəndələri AGF, YTK və yarış / tədbir məkanındakı mühafizəçilər tərəfindən verilən bütün təlimatlara əməl etməlidirlər. AGF qeyri-peşəkar davranış və ya hərəkətə görə akkreditasiyanı ləğv etmək hüququna malikdir.

KİV nümayəndələri yalnız jurnalist kimi fəaliyyət göstərmək üçün KİV zonalarına giriş əldə edir. Müsahibələr KİV nümayəndələri üçün ayrılmış və ya əvvəlcədən razılaşdırılmış yerlərdə alınmalıdır.
Akkreditasiya əldə etməmişdən əvvəl bütün KİV nümayəndələri Peşəkar Jurnalistika Qaydaları (Əlavə 4) ilə tanış olmalarını imzaları ilə təsdiq etməli və həmin qaydalara əməl etməlidirlər.
KİV nümayəndələri yarış / tədbir haqqında bütün məlumatları (yarışların proqramı, iştirakçıların sayı, təmsil olunan idman cəmiyyətləri / klubları / təşkilatları və s.) AGF-nin daim yenilənən rəsmi internet səhifəsindən əldə edə bilərlər. Zəruri olduqda, bu və ya digər məlumatlar KİV nümayəndələrinə elektron poçt vasitəsilə göndəriləcək və ya yarış məkanında onlara təqdim olunacaqdır.
YTK lazımi qaydada qeydiyyatdan keçmiş bütün KİV nümayəndələrinə yalnız media üçün ayrılmış pulsuz simsiz internet bağlantısına çıxış imkanı verir.

**Yarış meydançası (FOP)**

Yarış meydançası (FOP) AGF-nin Mətbuat katibinin cavabdehlik daşıdığı girişi məhdud olan bir ərazidir.
FOP adlı müvəqqəti giriş kartı (tətbiq olunduqda), yarış meydançasına daxil olmaq üçün verilə bilər. AGF-nin Mətbuat katibi FOP kartlarını təqdim etmək səlahiyyətinə malikdir.
Yarış meydançasına daxil olmaq üçün TV heyətinə aid ümumi qaydalar aşağıdakılardır:

- Zərurət yarandıqda TV heyətindən yarış meydançasına daxil olarkən AGF tərəfindən verilmiş xüsusi jiletləri geyinmək tələb olunur;
- Canlı yayım hüququ olan yayım şirkətinin heyətinə yarış meydançasına daxil olmaq üçün FOP kartı almasına ehtiyac yoxdur;
- Yayım hüququ olan televiziya yayımçıları üçün yarış meydançasına giriş operatorlar ilə məhdudlaşır. Televiziya jurnalistlərinə yarış meydançasına daxil olmağa icazə verilmir.

**Qarışıq zona (tətbiq olunduqda)**

KİV-in işini asanlaşdırmaq üçün qarışıq zonanın təşkili tövsiyə olunur. Tətbiq olunduqda, gimnastlar hər bir çıxışdan sonra yarış meydançasını (podium məşqləri, təsnifatlar, finallar, mükafatlandırma mərasimləri) qarışıq zonadan keçməklə tərk etməlidirlər. Gimnastlar müsahibə vermək məcburiyyətində deyillər, lakin onlara Qarışıq Zonada vaxt sərf edib sualları cavablandırmaları tövsiyə olunur. AGF bütün KİV nümayəndələrindən gözlənilən peşəkarlıq səviyyəsini qoruyub saxlamalarını və idmançılardan avtoqraf almaq və ya onlarla birlikdə şəkil çəkdirməmələrini xahiş edir.
Qarışıq zonaya giriş aşağıdakı ardıcıllıq qaydasına riayət etməklə həyata keçiriləcəkdir:

- Canlı yayım və yayım hüququ sahibləri – HB və RH – A, B, C
- Yazılı mətbuat (agentliklər) – E, EP
- Digər yazılı mətbuat və radio stansiyaları (E-EE)
- Ümumi bölmə (ENR-EP-EEP)

İnternet jurnalistlərinə qarışıq zonada müsahibələrin çəkilişlərini aparmağa icazə verilir.

**Podium məşqləri**

Podium məşqi zamanı bütün akkreditasiyadan keçmiş KİV nümayəndələrinin yarış meydançasına giriş icazəsi olacaqdır.
ENR TV komandaları (hüquqa malik olmayanlar) məşq zalları və podium məşqlərinə kamera ilə daxil ola bilərlər.
İnternet jurnalistləri KİV nümayəndələri üçün ayrılmış yerlərdə məşq və podium məşqləri zamanı çəkilişlər apara bilərlər.

**Məşq zalları**
KİV nümayəndələri mümkün olduğu təqdirdə, yarışın başlamasından əvvəl məşq zalında onlar üçün ayrılmış yerlərdən məşqləri izləyə bilərlər. Məşq zalları girişin məhdudlaşdırıldığı sahələrdir. Jurnalistlər, fotoqraflar və televiziya heyətləri məşq zalında təyin olunmuş media zonası hüdudlarını tərk etməməlidirlər. Məşq zalındakı media zonası zalın quruluşundan asılı olaraq müəyyənləşdirilir. Məşq zallarına yalnız rəsmi məşq günlərində daxil olmaq mümkündür. Yarış günlərində girişə icazə verilmir.

## 3. FOTOŞƏKİLLƏRİN ÇƏKİLMƏSİ

3.1 Fotoşəkillərin çəkilməsinə yalnız əvvəlcədən müəyyən olunmuş yerlərdə, canlı yayım şirkəti və heyətinin hüquqlarını pozmadan və tədbirin gedişatına maneçilik törətmədən icazə verilir. Gimnastika növündən asılı olaraq yarış meydançası ətrafında yerləşən fotoşəkillərin çəkilməsi üçün nəzərdə tutulmuş yerlərin sayı məhdud ola bilər. Yarışda seçilmiş fotoqraflara xüsusi yerlər ayrıla bilər.

3.2 Yarışların keçirildiyi məkanda fotoşəkillərin çəkilməsi üçün müəyyən olunmuş yerlərə daxil olan bütün fotoqraflardan YTK tərəfindən təqdim edilən jilet geyinmələri tələb oluna bilər. Fotoqraflar AGF-nin mətbuat xidmətinin geyim tərzi və işləmə üsulu ilə bağlı, məsələn, həmkarları şəkil çəkərkən görüntüyə mane olmaq, hakimlərin masaları arasında və ya arxasında işləməmək, TV kameralarının qarşında dayanmaq, giriş qadağan olunmuş zonalara daxil olmamalarına dair təlimatlarına hörmətlə yanaşmalıdırlar.

3.3 Yarış zalının quruluşundan asılı olaraq, seçilmiş fotoqraflara yarış meydançası boyunca onlar üçün müəyyən olunmuş yerlərə giriş təminatı hər zaman verilməyə bilər. Seçilmiş fotoqrafların jileti fərqlənə bilər.

3.4 Yarış meydançası ətrafındakı döşəmə üzərinə kamera çantası, kompyuter və keçidi çətinləşdirən digər əşyaları qoymaq qadağandır. Kamera üçün nəzərdə tutulmuş təkayaqlı dayaq altlıqlarına (çəlara) icazə verildiyi halda, üçayaqlı dayaq altlıqlarına (tripodlara) icazə verilmir.

3.5 Yarış meydançasında fəaliyyət göstərən fotoqraflar yarış ərzində hər hansı bir nöqtədən gimnast və ya məşqçilərlə ünsiyyət qurmamalı və ya onların fikirlərini hər hansı bir işarələrlə yayındırmamalıdırlar. Gimnastika idman növündə fotoqraflar başqa idman növlərinə nisbətən yarış iştirakçılarına daha yaxın olurlar. Gimnastikada diqqətin bir yerə cəmləşməsi zəruri olduğundan, fotoqraflar bunu nəzərə almalı və çox səs-küy və hərəkətə yol verməməlidirlər. Yarış meydançası və ya ona yaxın ərazidə mobil telefonların istifadəsi qadağandır. İş üçün lazım olduqda, onların yalnız səssiz rejimdə istifadəsinə icazə verilə bilər. Yarış zamanı idmançılar,

məşqçilər və rəsmilərin fikrini yayındırmaq və ya onların şəkillərini çəkmək, TV komandasına, yarışların rəsmi şəxslərinə, tamaşaçılara görüntünü və ya keçidi məhdulaşdırmaqla mane olmaq yolverilməzdir.

3.6 İşartı ilə fotoçəkilişə, səs yazısı və ya çəkilişlərin aparılması, rəqəmsal görüntülərin qeydə alınması və istifadə olunması qadağandır.

3.7 Məsafədən idarə olunan fotokameralar ciddi təhlükəsizlik tələblərinə cavab verməlidir. Mətbuat xidməti bütün məsafədən idarə olunan fotokameraları yoxlayacaq və təhlükəsizliyə, eləcə də AGF-nin Texniki Direktorunun tələblərinə cavab verməyən müraciətləri qəbul etməyəcəkdir. Məsafədən idarə olunan kameralar yarış / tədbirin başlamasından 2 saat əvvəl quraşdırılmalı və yalnız yarış / tədbir sona çatdıqdan sonra götürülə bilər.

3.8 Fotoqraflar yarışlar zamanı TV kamera və ya hakimlərin önündən keçməməlidirlər.

3.9 Bədii gimnastika üzrə yarışlarda əl alətləri yerə düşdükdə, fotoqraflar müdaxilə etməməlidirlər.

3.10 Mümkün olduqda, mükafatlandırma mərasimləri zamanı bütün fotoqrafların yarış meydançasına daxil olmalarına icazə veriləcəkdir.

## 4. YAYIM HÜQUQLARI

4.1 Yayım hüququna malik olan internet və media yayım şirkətləri bu qaydalarla bərabər yayım hüquqları üzrə müqavilələrin (tətbiq olunduqda) şərtlərinə əməl etməlidirlər. Yayım hüququ olan KİV nümayəndələri yarış zalından çəkiliş apara bilərlər. Canlı yayım hüququ olan yayımçının icazəsi ilə Yayım hüququna malik olan KİV nümayəndələrinə 5 dəqiqəlik canlı yayım aparmaq hüququ verilə bilər.

4.2 Podium məşqləri istisna olmaqla, müvafiq hüquqa sahib olmayan KİV nümayəndələrinin yarış zalında çəkiliş aparmaları qəti qadağandır. İnternet jurnalistlərinə yarışdan aid olduqları veb-saytlar və ya sosial şəbəkələrə audio və ya video yayımların ötürmələrinə icazə verilmir.

4.3 Müvafiq hüquqlara malik olmayan KİV nümayəndələri və internet jurnalistlərinə (EE və EEP) məşq sessiyaları və podium məşqlərini çəkmələrinə icazə verilir. Yarışlar başlayan kimi, məşq sessiyaları mətbuat üçün qapalı olacaqdır.

4.4 Yayım hüquqları olmayan xəbər agentlikləri hər bir tədbirdə iştirak etdikdə Yayımçı Bəyannaməsini (Əlavə 2) imzalamalıdırlar. AGF icazə verdikdə, aşağıdakı sahələrə daxil ola bilərlər:

- Yarışdan əvvəl və sonra xüsusi ayrılmış media sahələrində idmançılar, məşqçilər və digər tədbir iştirakçıları ilə müsahibələr götürülə bilər;
- İcazə olmadan yarışlar canlı yayımlana və ya lentə alınmış material istifadə oluna bilməz;
- Yayım hüququ olmayan xəbər agentlikləri tərəfindən AGF-dən yazılı icazə almadan yarışdan lentə alınmış görüntülərin hər hansı bir şəkildə istifadəsi qadağandır;
- AGF-dən yazılı icazə almadan yarışdan lentə alınmış görüntülərin hər hansı bir şəkildə istifadəsi qadağandır;
- Arenadakı yayım məhdudiyyətləri və təsdiq olunmuş kamera mövqeləri haqda

məlumat AGF-nin mətbuat katibliyi tərəfindən veriləcəkdir. AGF istənilən vaxt xəbərdarlıq etmədən hər hansı video və ya audio qeydiyyat cihazından istifadəni məhdudlaşdıra bilər. Bütün hallarda müvafiq fəaliyyətləri həyata keçirməzdən əvvəl təsdiq alınmalı və iştirak haqqında xəbərdarlıq olunmalıdır;

- İcazə əldə etmiş yerli televiziya şirkətləri istisna olmaqla, akkreditasiya almış heç bir KİV nümayəndəsi icazə almadan video çəkiliş (o cümlədən rəqəmsal) apara bilməz;
- Şəxsi video kamera və ya rəqəmsal video kameraların istifadəsinə icazə verilməyəcəkdir.

Akkreditasiya üçün müraciət etməklə, KİV nümayəndələri hazırkı Qaydaları qəbul etmiş olur. Akkreditasiya üçün müraciət etmə, onun verilməsinə zəmanət vermir.

4.5 Müvafiq yayım hüququna malik olmayan KİV nümayəndələri qarışıq zonada keçirilən müsahibələri lentə ala və yayımlaya bilərlər.

4.6 AGF tədbirindən istənilən fotoşəkil, audio, lent yazısı / rəqəmsal şəkil və ya görüntülərdən hər hansı bir kommersiya məqsədilə istifadəyə AGF-dən əvvəlcədən xüsusi, yazılı razılıq almadan icazə verilməyəcəkdir.

4.7 Yuxarıda qeyd edilən şərtlərin pozulduğu və ya bilavasitə yarış məkanında verilən təlimatlara riayət edilmədiyi təqdirdə, AGF hər hansı ilkin xəbərdarlıq etməklə və ya etmədən akkreditasiyanı geri götürmək və onun gələcək rəsmi yarış / tədbirləri üçün akkreditasiya müraciətini qəbul etməmək hüququna malikdir. AGF-nin mətbuat katibliyi tərəfindən verilən sanksiyalara qarşı şikayət verilə bilər. Bu cür şikayət sanksiyanın verilməsi haqda bildirişin təqdim edilməsindən sonra 24 saat ərzində AGF-nin Baş katibinə yazılı şəkildə təqdim edilməlidir. AGF-nin Baş katibinin qərarı son olaraq qətidir.

## 5. SANKSİYALAR

AGF KİV nümayəndələri ilə müsbət münasibətlərin yaradılmasına çalışır. Lakin xoşagəlməz halların qarşısını almaq və digər şəxslərin hüquqlarını və iş şəraitini qorumaq üçün sanksiyalar tətbiq olunur. Hazırkı Qaydaların sanksiyalar nəzərdə tutmaqla əsas məqsədi aşağıdakılardan ibarətdir:

- Pozuntuları müəyyənləşdirmək, onların mənbələrini və nəticələrini nəzərdən keçirmək;
- Qaydaları pozan şəxslərə qarşı müvafiq sanksiyaların tətbiq edilməsi qaydasını tərtib etmək;
- Apellyasiya prinsipini təqdim etmək.

### 5.1 Qayda pozuntularının növləri

AGF pozuntunun xarakteri və ağırlıq dərəcəsini nəzərə alaraq, ciddi və kiçik pozuntuları fərqləndirir.

Keçmiş təcrübələrə əsasən, ən çox yayılmış pozuntular aşağıdakılardır:

- Mübahisəli redaksiya məzmunu;
- İş yerlərində qəbuledilməz davranış;

- Yarış məkanında qadağan olunmuş zonalara daxil olma.

Aşkara çıxarılmış pozuntular barəsində aşağıda göstərilən qaydalara uyğun tədbirlər görüləcəkdir. Üçüncü tərəfin məlumat verdiyi qayda pozuntuları da araşdırılır.

## 5.2 Araşdırma proseduru

Şikayət daxil olduqda, məsələ AGF-nin mətbuat katibliyi tərəfindən araşdırılır. İş üçün lazım olan bütün faktlar və müvafiq sənədlər, habelə digər lazımi materiallar nəzərdən keçirilmək üçün toplanır.

Məlumatlar AGF-nin mətbuat katibliyi tərəfindən nəzərdən keçirildikdən sonra növbəti addımlar barədə qərar qəbul edilir. Belə addımlara qaydaları pozan şəxs ilə söhbət, eləcə də faktları təsdiq etmək məqsədilə başqa şəxslər ilə müzakirələrin aparılması daxil ola bilər.

Hadisənin və ya pozuntunun bütün hallarını əks etdirən akt tərtib olunur. Əgər varsa, əvvəlki xəbərdarlıqlar və ya sanksiyalar da burada qeyd edilir.

## 5.3 Sanksiyaların növləri

Sanksiyanın dərəcəsi pozuntunun ciddiliyindən və ilk dəfə yol verilib-verilmədiyindən asılıdır. Sanksiya prosesi 3 addımdan ibarətdir:

- Şifahi xəbərdarlıq;
- Yazılı xəbərdarlıq;
- Aktın tərtib edilməsi.

AGF-nin Mətbuat katibliyi aşağıdakı cəza tədbirlərini həyata keçirə bilər:

- Akkreditasiyanın ləğv edilməsi və yarışın qalan hissəsi üçün arenadan çıxarılması barədə göstərişin verilməsi;
- AGF-nin rəsmi yarışları / tədbirlərinə akkreditasiyanın verilməsindən məhrum olunma;
- AGF-nin rəsmi yarışları / tədbirlərinə akkreditasiyanın verilməsindən müvafiq Olimpiya dövrü ərzində məhrum olunma;
- Akkreditasiyanın bütöv yarış müddəti üçün dayandırılması.

Qaydanı pozan şəxsə və onun aid olduğu KİV təşkilatına bütün "yazılı xəbərdarlıqlar" və sanksiyalar barədə yazılı bildiriş verilir.

# 6. İSTİSNALAR

Hazırkı Qaydalarda nəzərdə tutulan müddəalara AGF-nin qərarı ilə istisnalar müəyyən edilə bilər.

# 7. YEKUN MÜDDƏALAR

Bu Qaydalar BGF-nin Media Qaydalarına əsaslanır və AGF-nin rəsmi yarışları / tədbirlərində və ya tanıdığı yarışlarda / tədbirlərdə media ilə bağlı işlərin idarə olunması üzrə ümumi çərçivəni müəyyən edir.

Gimnastika növlərindən və yarışların keçirildiyi məkandan asılı olaraq, KİV nümayəndələri üçün burada qeyd olunmuş iş şəraitinin yaradılması bütün yarış / tədbirlərdə mümkün olmaya bilər. KİV nümayəndələri media məsələlərinin idarə olunması haqqında AGF-nin mətbuat katibliyi tərəfindən hər yarış üzrə əvvəlcədən məlumatlandırılacaqlar.

Hazırkı sənəd 2021-ci ilin 27 dekabr tarixindən qüvvəyə minir.

Hazırkı Qaydalara əlavə və dəyişikliklər yalnız AGF-nin İcra Komitəsinin qərarı əsasında oluna bilər.

## ƏLAVƏLƏR

| | |
|---|---|
| Əlavə 1 | E Kateqoriyalari üçün Media Bəyannaməsi |
| Əlavə 2 | Hüquq sahibi olan (RH) və olmayan (ENR) Media Qrupları üçün Yayımçı Bəyannaməsi |
| Əlavə 3 | Vebsayt üçün Anket |
| Əlavə 4 | Peşəkar Jurnalistika Qaydaları |